## Utanım gərək

A "vətəndaşam - qarasız aşam"
deyən
O xörəkpaylayan,
silib-süpürən
vətəndaş deyil?!
Bəlkə o çiynindəki baş deyil?!

Nə gic,
nə sərsəri -
Abşeron nabatı -
Mərdəkan kövsəri!
Yanıltmayım sözü -
doğrusu-düzü -
Müalicəçi qadınlardan biri!
Vurnuxa-vurnuxa,
qısıla, dura.
- Gedirsən, - dedi, - qardaş?...
Etinasız, baxımsız-
bekara, təşəxxüslə
tərpəndi baş -
yəni "hə!"
O, yaşınıb abi-ruyinə,
İşlə məşğul göründü
yenə.
Duydum: dolmuş bulud -
İndicə çən qonar
kipriklərinə...

Heyim dil açdı -
qırıq-qırıq dindi:
-Mərdliyə yoxmu marağın?
Kaş erkən sönəydi çırağın!
Baş həkimə "xox!"
elədin,
Pəhrizkar aşbazı tox!...
Daldalandı təsərrüfat
bacısı;
Pörtmüşdü dilinin acısı...
Başmağını çevirən kim?
Eynini deyişdirən kim?
Qulluq göstərirdi
növbətçi həkim,
Tanrı, bu yerdə olasan hakim...
...Bəs necə?
Şıltağıma dözdülər
ellicə.
"Zordan gələn nökərəm,
Dinmə, dişlərin tökərəm!"
-Nə var? Nə var?!
-Mən vətəndaşam!
Olana ortaq, yeyənə qardaşam...
Say-seçmə hüquqlarım var!
Gərəkdir olam bəxtiyar!
Ağır zəhmətə qatlaşmışam,
Ələkçinin qıl verəni olmuşam.
İki cüt bir tək toyuğun,
Üç-beş cücəsini sayıb
yorulmuşam...
Cücələr dənnənəndə,
hoppanıb, şenlənəndə
sərçələri qovmuşam.
Sağsağanla öcəşib,
qarğaya söz atmışam:
- Qarğacan, qarğa!
Et özünə sırğa!
Bizdə cücə yoxdur,
Qonşularda çoxdur!..
...Vermə sual, bəsdir-yetər!
Qıcıqlanar qonşum Gülər!..
... Ey qədr-qiymət bilənlər!
Düzü aşkar sevənlər,
Gün keçib, gün gəlib
Mən də sayılmışam.
Dəyərli göndəriş almışam-
Qiyməti öküz yıxar,
Qoxusu tülək boğar...
Hə, o söz-
zəmi biçildi,
sərçənin bəyliyi
bitdi...
... Olsa da əli işdə,
görkəmi yorğun,
o məsum müalicəçi qadın
sayğı bildi yenə,
etdi sual:
- Hə gedirsən, qardaş?
Get! Dalınca bir qara daş!
Getməyin olsun,
gəlməyin yox!
Qəzavü-qədərçin
ölüm-itim çox!..

**2019**



***Tat QÜDRƏT,***
***Quba rayonu, İsnov kəndi***

kredo.-2019.-4 aprel.-S.5.